*Naxçıvan xatirələri*

# GƏZDİM, GÖRDÜM, YAZDIM...



*Sevindik NƏSİBOĞLU*

**1.BAŞLANĞIC**

Mən Naxçıvanı çox sevirəm. Naxçıvan haqqında filmlərə baxmışam, mənbələrdə oxumuşam... ona şeir də həsr etmişəm və həmişə Naxçıvana getmək istəmişəm, bu arzu ilə yaşamışam. Ora mənim üçün çox əziz olub. Tarixi yerləri, dünyaya bəxş etdiyi şəxsiyyətləri görərkən özümün Naxçıvana getmək həvəsim daha da artırdı. Lakin, Naxçıvanı bizdən didərgin salmışdılar. Oraya getməyi çox istəsəm də, müəyyən səbəblər buna imkan verməyib. Mən nə vaxtsa ora gedəcəydim və oranı elə bəyənəcəkdim ki, lap oranın daimi sakininə çevrilmək istəyəcəkdim. Naxçıvan təkcə Şərqin qapısı olmaqla bitmir, o, eyni zamanda Şərq mədəniyyətinin, Şərq incəsənətinin qapısıdır. Naxçıvan mədəniyyətinin qapısı Cavidin, onun müəllimi Sidqinin, Mirzə Cəlilin, Məmməd Səid Ordubadinin, onun atası Fəqirin evinin qapısıdır... Naxçıvan bir ailədir, o ailə minlərlə igid sərkərdə, şair, siyasətçi oğullar yetişdirib.

Naxçıvan Eldəgizi dünyaya gətirmişdi, Eldəgizlilər isə «gizli» deyildilər, onlar Naxçıvanı Şərq incisi etmişdilər. Orada Möminə Xatun ana doğulmuşdu. O, birinci xanım idi, sonralar xatirəsinin əbədiləşdirilməsi üçün ona möhtəşəm məqbərə tikdirildi.

Çoxlu tikililər tikib Naxçıvanı memarlıq incisi etsin deyə Əcəmi gəlmişdi dünyaya, o olmasaydı turistlər necə tanıyardılar Möminə Xatun ananı, onun xatirəsinə ucaldılmış türbəni?

Ulu Naxçıvan diyarımız Naxçıvanskiləri gətirmişdi dünyaya, o soydan da Heyran xanım kimi şairə, Ehsan xanlar və Cəmşidlər kimi zabitlər yetirmişdi Vətənə.

Cəmşiddə qılınc, Heyranda qələm vardı. Cəmşid güllələnərdi 1937-də, Heyran isə yazardı:

"Oldu, ya rəbb, həlak insanlar,
Suvarıb torpağı qızıl qanlar. "

Bir qala tikdi, sirri özündə qaldı... "Bir qalanın sirri"ni yazan Təhmasib bəydi... (Məhəmməd Hüseyn Təhmasib).

Atatürk sevmişdi "İblis"əsərini. Sevirdi Naxçıvanı, çünki oğul olaraq o da Nərimanovla çox qorumuşdu o, Şərq qapısını...

Yurdun gələcəyini sovetlərdən qoruması üçün Azərbaycan SSR-nin bir illik yubileyində Naxçıvan Heydər Əliyevi dünyaya gətirdi. O, çox çalışdı, axırıncı axarıncı aşırımları aşdı, iki dəfə Azərbaycanın rəhbəri oldu və artıq onun sayəsində biz birik, hərc-mərclik olmadı və biz bölünməmişik. Atasına kömək etməsi yolunu davam etdirməsi üçün Ulu tanrı İlhamı dünyaya gətirdi. O, Azərbaycanı daha da çiçəkləndirdi, ordumuzu möhkəmləndirdi. Azərbaycan isə bunlara görə Naxçıvan ailəsinə təşəkkür etdi, edir və edəcək. Onlar Naxçıvan ailəsindən idi, onları Azərbaycan və ayrılmaz parçası Naxçıvan böyütmüşdü. Naxçıvan ana «Anamın kitabı» idi; bir səhifəsini rus, bir səhifəsini ərəb, bir səhifəsini türk oxuyurdu... Mirzə Cəlil daha da ilhamlanırdı Naxçıvan ailəsindən! Naxçıvan dünyaya Xarəzmi ötən bir şəxsiyyət gətirmişdi: Əli Rasizadə! Dənizçilər gətirdi, Həmid kimi ki, Xəzərdə gəmiləriylə Azərbaycan bayrağını göstərsinlər! Ana kitabı var idi onun: bir səhifəsində ərəblər Azərbaycana hökm etdi, bir səhifəsində ruslar... O biri səhifəsində isə budur, artıq Müstəqil Azərbaycan qurulub. Başda Heydər gələcəyimiz üçün, sonra İlham atasının qoyduğu izi davam etdirmək, o yolla getmək üçün yaşayır, yaşadır, yaşayacaq...

Bundan sonra, bəlkə də, inşallah, dəfələrlə Naxçıvanla görüşəcəyəm... Lakin, birinci görüşün sevincini heç bir zaman unutmayacağam... Naxçıvana aid çoxlu şeirlər yazmışam. Həmin şeirləri siz fəsillərdə oxuyacaqsınız. Əvvəllər yazdığım və kitablarımda işıq üzü görmüş şeirlərimi yenidən nəzərdən keçirdim. Lazım olan düzəlişlərdən sonra "Naxçıvan xatirələri"mə daxil etdim. Bunu oxucuların qarşısında məsuliyyətim kimi bildirirəm.

**2. ULU NAXÇIVAN ANA MƏNLƏ GÖRÜŞDÜ!**

İnana bilmirdim... Mən bizdən didərgin - ayrı salınmış, lakin qəlblərimizdə əbədi yeri olan yurdumla qovuşmuşdum... O isə mənə qovuşmuşdu... Arzuma çatmışdım... Burada o qədər yerləri gəzəcəkdim ki... O qədər adamlarla görüşəcəkdim ki... O qədər yaxşı baxacaqdı ki mənə Ana Naxçıvan... daimi orada qalmaq istəyəcəkdim...

Məktəblilərin yay tətilinin bitməsinə on iki gün qalmışdı. Atamın xidməti işi ilə əlaqədar tətil vaxtı çox yerləri gəzə bilməmişdik... Amma həyət evimizdə qalırdıq deyə təbiətlə daha yaxın təmasda olduğumdan bu da məni qane edirdi.

Azərbaycanımızın tarixi yerlərini, əsasən də bizdən didərgin salınmış Naxçıvanımızı gəzib görmək, ziyarət etmək istəyimi atam da bilirdi. Deməli olar ki, işğalda olmayan və bizdən didərgin salınmamış bir çox yerlərdə olmuşdum. Naxçıvan istəyim isə gözlənilmədən baş verdi. Belə ki, yuxarıda qeyd etdiyim kimi şeirlər kitablarımda Azərbaycanımızın keçmişi, sərkərdələri, ululları, qəhrəmanları, şəhidlərimiz, zaman-zaman işğala məruz qalmış ərazilərimiz, o, cümlədən də Naxçıvan, eləcə də Naxçıvanın yetirdiyi tarixi şəxsiyyətlər barədə şeirlər yazmışdım, bu şeirlər «Hərdən uçmaq istəyirəm» və «Dünyamsan Azərbaycan» şeir kitablarımda 2018-ci ilin iyul ayında on yaşım münasibəti ilə çap edilmişdi. 2018-ci ilin avqust ayının axırları olardı. Atam həmin vaxt məzuniyyətə çıxmışdı. Mənə məlum oldu ki, yaradıcılığımı izləyən Rza müəllim Talıbov görüşmək istəyimi nəzərə alaraq mənimlə görüş vaxtı təyin etmişdir. Çox sevincək olmuşdum. Atamla birlikdə bu görüşə getdim. Özümlə həmin şeir kitablarımı da götürmüşdüm. Rza müəllim məni çox səmimi və mehribanlıqla qarşıladı. Özü xidməti paltardaydı. İlk dəfə idi ki, bir generalla görüşürdüm. Ancaq Rza müəllim məni o qədər isti qarşıladı ki, bir anlıq onun general mundirində olduğunu belə unutdum və fikirləşdim ki, kaş Azərbaycanda hazırkı generalların hamısı olmasa da müəyyən bir qismi Rza müəllim xarakterdə, xasiyyətdə, səmimilikdə və sadəlikdə olaydı. Görüş vaxtı Rza müəllim yaradıcılığımla maraqlandı. Mən görüş zamanı öz şeir kitablarımı Rza müəllimə hədiyyə etdim. O, da öz kitabını mənə bağışladı. Necə oxuduğumu, əsasən də ingilis dilini necə öyrənməyimi soruşdu. Ona əla oxuduğumu və ingilis dilinə müsbət maraq göstərdiyimi bildirdim. Çox sevindi. İngilis dilini daha yaxşı mənimsəməyim üçün bir aylıq İngiltərəyə getmək istəyimin olub-olmadığını məndən soruşdu, minnətdarlıq edərək bildirdim ki, bir ay ailə üzvlərimsiz olmağı bacarmaram. Belə olduqda, ümumiyyətlə, haranı gəzmək, səyahət etmək istədiyimi soruşdu. Özümdən asılı olmadan əzbərləmiş kimi Naxçıvanı görməyin, ziyarət etməyin çoxdankı arzum olduğunu dedim, O gülümsədi və razılığını bildirdi. Həmin xeyirxah insanın diqqəti və qayğısı sayəsində əlçatmaz bildiyim istəyim həyata keçdi. Beləliklə, sentyabrın başlanğıcından Naxçıvana getmək hazırlıqlarına başladım... Nəhayət, sentyabrın 3-də biz Naxçıvana getmək üçün Heydər Əliyev beynəlxalq Aeroportuna gəldik... Aeroport çox gözəl idi. Biz avtomaşını aeroportda dayanacaqda saxladıq və qəlyanaltı etmək üçün aeroportdakı yeməkxanaya getdik. Aeroportda olarkən Naxçıvanı düşünürdüm. Haqqında oxuduğum, şeirlər yazdığım, şəkillərdə gördüyüm Naxçıvanı düşünürdüm. Hüseyn Cavid Naxçıvanını düşünürdüm... Cəmşid Naxçıvanskinin, Möminə Xatun ananın, Ulu Heydər Əliyevin Naxçıvanını düşünürdüm. Görəsən, hansı yerləri gəzəcəyəm, kimlərlə görüşəcəyəm... Hansı tarixi məlumatları alacağam... Naxçıvan görüşümdən necə ilhamlanacam... Bütün Naxçıvan ailəsini yadıma salırdım, Cavidləri... haqqında yenicə öyrəndiyim Əli Rasizadəni düşünürdüm...

Düzünü deyim ki, əvvəllər aeroportda olmamışdım və təyyarəyə minməmişdim. Ona görə də ilk başlanğıcdan hər şey mənim üçün maraqlı idi. Aeroportda tunel kimi bir yerə daxil olduq. Səbirsizlənirdim... Bu tuneləbənzər yerdən təyyarəyə minəcəkdim, oradan da Naxçıvana gedəcək, daha doğrusu uçacaqdım... Quş kimi uçacaqdım yurdumun qoynuna... Ondan sonra daha çox istəyəcəkdim Naxçıvana uçmağı... Lakin heç vaxt unutmayacaqdım ilk uçduğumu... Elə səbirsizlənmişdim ki, əvvəl buludları lap üstümdə, yaxınlıqda görür, buludlara çatmaq, əl atıb tutmaq istəyirdim... İndi buludları lap təyyarənin altında görəcək, özümü göydə, ondan yüksəkdə hiss edəcəkdim.

Həmin vaxt ayağımın çatmadığı yolları, izləri göyün neçə mərtəbəsində görəcəkdim...

Təyyarə əvvəl bir az getdi, sürət topladı, sonra yerdən çox yuxarıya, havaya qalxdı. Artıq buludlara çatırdım. Göydə uçduğumun həzzini pəncərəyə baxaraq belə yaşayırdım... Ona görə də avqustu unutmuşdum... İyulu unutmuşdum... İyunu unutmuşdum... Yadımda qalan tək tarix bu gün, yəni 3 sentyabrdı...

Artıq təyyarədəydim, bütün həyəcanım keçmişdi. Heç darıxmırdım. Hər şey mənə ləzzət verirdi. Həyatdan həzz alırdım. Təyyarədə yanımda anam və bacım əyləşmişdi, atam bizimlə bir cərgədə, lakin başqa oturacaqda tanımadığım iki kişinin yanında əyləşmişdi. Mən onların kim olduğu və nədən danışdığı ilə maraqlanmadım. Öz aləmimdə idim. Gözüm pəncərədə, yalnız pəncərədə idi. Bir saat çəkəcəkdi Naxçıvana uçmağımız. Bunu stüardessanın deməsindən bildim. Təyyarədə iki stüardessa vardı, onlardan biri qısa, digəri isə uzun saçlı idi. Təyyarədə olarkən onlar bizə yemək və şirə vermişdilər. İlk dəfə idi ki, "Göy"də nahar edirdim. Oxumaq üçün jurnal da vermişdilər. «Baku» jurnalını aldım. Rus dilini yaxşı bilmirdim deyə, anama verdim. Lakin bildim ki, jurnal incəsənətdən, baletdən, musiqidən, rəsmdən bəhs edir. Pəncərəyə baxdıqda uçmaq həzzim daha da artırdı. Göydən başqa cür görünən Yerə, torpaqlara, çaylara, göllərə baxırdım. Baxdıqdan sonra atamdan soruşdum ki, təyyarə hansı ölkələrdən keçir?. O isə əzəli torpaqlarımız Qarabağ və onun ətraf rayonları erməni barbarları tərəfindən işğal olunduğu üçün Bakıdan Qarabağ üzərindən Naxçıvana uçmağın təhlükəli olduğu nəzərə alındığından təyyarənin İran İslam Respublikasının hava məkanından uçmaqla Naxçıvana gedəcəyini bildirdi. Bir anlıq qussələndim ki, ədalətsizliyə bax, öz vətəninin bir şəhərindən digər şəhərinə getmək üçün hazırda başqa dövlət kimi bildiyimiz, lakin 50 milyona yaxın azərbaycan türkünün yaşadığı, tarixən xainlər tərəfindən parçalanmış, hazırda İran İslam Respublikası adlanan bir ölkənin, yəni xarici ölkənin hava məkanından istifadə etmək məcburiyyətində qalmışıq. Bəli, səmadan İranın ərazilərini də gördüm. Lakin, təyyarənin dəqiq haradan, hansı ərazilərdən keçdiyindən xəbərsizdim. İranın ərazilərini də görmək məni sevindirirdi. Çünki İranı, onun bir hissəsi olan, Şəhriyar yurdu Cənubi Azərbaycanı da görmək istəyirdim. Bəli, Qarabağ hadisələrinə görə təyyarə İrəvan üzərindən yox, İranın hava məkanından keçirdi. Bu arada ürəyi bütöv Azərbaycan həsrəti ilə qovrulmuş, ustad Məhəmməd Hüseyn Şəhriyarın dilinin əzbəri olmuş Savalan dağlarına həsr etdiyim və «Dünyamsan Azərbaycan» şeir kitabımda yer alan «Canım Savalan dağları» şeirimi xəyalımdan keçirdim və fikirləşdim ki, bəlkə də, elə indi Savalan dağlarının üzərindən uçuruq. Ona görə də həmin şeirdən bir neçə bəndi ürəyimdə söylədim;

Səndən mən ayrı düşmüşəm,
Xəyalınla görüşmüşəm,
Həsrətinlə bürüşmüşəm,
Canım Savalan dağları.

Əlim bu səhər buz olub,
Qol sinədə qopuz olub,
Bir həyatım otuz olub,
Canım Savalan dağları.

*(Davamı 12-ci səhifədə)*

## Naxçıvan xatirələri

# GƏZDİM, GÖRDÜM, YAZDIM...

*(Əvvəli 10-cu səhifədə)*

Kədərli görürəm səni,
At başından duman, çəni,
Görüşünə səslə məni,
Canım Savalan dağları.

Dəyəndə şaftalı, ərik,
İnşallah biz görüşərik,
Sevincimə sən ol şərik,
Canım Savalan dağları.

Tarixən bizim olmuş İrəvanın nə vaxtsa yenə də bizim olacağına inam və ümidlə baxırdım. Artıq göydən İranı səyahət etməyim bitmişdi. Biz Naxçıvana çatırdıq. Təyyarə aşağıdan uçurdu deyə pəncərədən çoxlu binalar, çoxlu yerləri hələ ki, havada olan təyyarədən görürdüm. Bu isə hamısını görmək deyildi, hələ nəinki göydən gördüklərim, çoxlu gözəl yerləri elə Yerdən, yaxından görəcəkdim. Lap Culfaya qədər hər yeri görəcəkdim. Hələ Culfama şeir də həsr etmişəm, yəqin Culfam onu necə sevdiyimi bilir;

Nə gözəldir Culfam mənim,
Kəndim , elim, obam mənim,
Gözəl yurdum, yuvam mənim,
Füsunkardır Culfam mənim.

Dağlarının başı qardır,
Dərələrdə duman vardır,
Mənim Culfam, yerin dardır?
Nə gözəldir, Culfam mənim!

Oralarda güllər açar,
Cüyür mələr, ceyran qaçar,
Şair Culfaya söz qoşar:
"Nə gözəldir Culfam mənim!?"

Bu şeiri 09.10.2016-cı ildə yazmışam. Ancaq elə bil ki, elə göydə, elə indicə yazmış kimi təkrar edirdim.

Artıq buludlardan əlim üzülmüşdü, pəncərədən isti günəşin şəfəqlərini və Naxçıvan aeroportunu görürdüm. Yadıma tez-tez xatırlanan bir hadisə düşürdü: Ulu Öndərimiz Heydər Əliyevin təyyarəylə Bakıya gəlişi. Həmin təyyarə olmasaydı, Azərbaycanın düyünü çözülə bilməyəcəkdi, hərc-mərclik, vətəndaş müharibəsi olacaqdı və ölkəm parçalanacaqdı, bəlkə də, daha pisi olacaqdı. Tanrı Azərbaycan xalqı üçün xilaskar kimi göndərdi Ulu öndərimizi. Bu düşüncələrdən ayrılıb yenə də Naxçıvanı... Naxçıvanı düşünürdüm... Neçə kilometrlərlə uzaqda qalan, lakin ürəyimin dərinliyində olan Bakıda düşündüyüm kimi...

Nədənsə belə məqamlarda əvvəllər yazdığım şeirlərim yaddaşımda oyanır, fikrimdə təkrarlanırdı... "Naxçıvandır" adlı şeirim də belə oldu:

Qurbanam o ada mən, onu görsəm məst olaram,
Tariximdə Cavid yurdu, Cəlil yurdu Naxçıvandır.
O elə oğullar verib, onlar haqda danışaram,
İgidlikdə Cəmşid yurdu, Heydər yurdu Naxçıvandır.

O, elə bir yer idi ki, Nəimini öldürdülər,
Elə bil ki, tək onu yox, Nəsimini öldürdülər.
Vətənimin sevincini, xoş dəmini öldürdülər,
Böyük memar Əcəminin vəfat yeri Naxçıvandır.

Tərkibində Kəngərli və Babək ilə Culfa vardır,
Qıvraq vardır, Şahbuz vardır, neçə zövqü-səfa vardır.
Tarixində yaddan çıxmaz, unudulmaz cəfa vardır,
Gülüstanla, Kuseyirlə məşhur olan Naxçıvandır.

Kəngərlinin anasısan, Əcəminin anasısan,
Sevin ki, ən gözəl lider - Heydərimi yaratmısan.
Məqbərələr yurdusan, həm türbələr yurdusan,
Əbədi şöhrət məkanı tarix evi Naxçıvandır.

Sevindiyin qələmiylə sən indi vəsf olunursan,
Cəmşidimin, Bəhruzumun, Kəlbəlimin yurdusan
Qönçəbəyim, Cavidimin doğum yeri Naxçıvandır,
Cuğasıyla məşhur olan qədim yerim Naxçıvandır.

Əlbəttə, bu şeir mənim «Hərdən uçmaq istəyirəm» adlı şeir kitabımdandır. Yazılma tarixi də 23. 05. 2017-ci ildir.

### 3. «TƏBRİZ»MEHMANXANASI

Bizim Naxçıvanla əlaqəmiz həmişə olub. Atamdan eşitdiyimə görə, heyvandarlıqla məşğul olmaqla qışda qışlağa, yayda əzəli torpaqlarımızdakı yaylaqlara köçmüş ulu babalarımız ta keçmişdən həmişə bazarlıqlarını yaylaqda olarkən Naxçıvandan etmiş, Ordubad əriyindən qaysaba hazırlatdırmışlar. Bundan əlavə ana babam Salehin qardaşı Eldar Həsənov 5 il Naxçıvanın nəqliyyat prokuroru vəzifəsində çalışmışdır. Eyni zamanda atamın Naxçıvanın bir neçə regionundan sevimli, unudulmayan tələbə yoldaşları olmuş və tələbəlik illərində o, da Naxçıvanı görmüşdür. Yəni Naxçıvan böyüklərimin, yaxınlarımın da yaxını olmuşdur. Bəlkə də, məni Naxçıvana çəkən istəyin bir qolu da bundan irəli gəlirdi. Atamın deməsinə görə düz 33 ildir ki, Naxçıvanı görmürdü. İndi mən ilk dəfə, atam isə 33 ildən sonra Naxçıvanı görürdük.

Bəli, artıq uçuş başa çatmışdı, artıq Naxçıvanda idim. Çox sevinirdim. Məlumat topladığım şəhərə gəlmək məni çox sevindirirdi, bunu sözlə ifadə etmək mənim üçün çətinlik yaradırdı. Naxçıvanın gözəlliyinə heyran qalmağım elə aeroport binasının «Naxçıvan» yazılan yerindən başladı. Belə ki, təyyarədən düşdükdə oradakı səliqə-sahman, təmizlik, sakitlik, nizam-intizam göz oxşayırdı. Gözəlliyi seyr edə-edə çanta və bəzi əşyalarımızı götürüb aeroportdan çıxdıq. Çıxışda çoxlu avtomaşın gördüm. Onların əksəriyyəti taksi avtomaşını idi və sarı rəngdə idi, sürücüləri də səliqəli, eyni rəngdə olmaqla, eyni geyimdə avtomaşınlarının yanında dayanıb sərnişinin ona yaxınlaşmasını gözləyirdilər. Bir nəfər də olsun sürücü çığırıb sərnişin səsləmirdi. Düz cərgədə düzülmüşdülər. Onlar sürücülük qaydalarına riayət edirdilər, nəzakətli və sakit dayanmışdılar. Ordan bizim üçün ayrılmış avtomaşına əyləşib «Təbriz» mehmanxanasına getdik. Bizi aparan avtomaşının pəncərəsindən göydən gördüklərimi aydın şəkildə yerdə seyr edirdim. Bunun özü ayrı ləzzət idi, yol boyu bir çox yerləri marketləri, yaşayış və inzibati binaları seyr etdim. İndi isə daha haraları gəzəcəyimi aydın şəkildə düşünürdüm. «Təbriz» mehmanxanasına çatdıq. Belə düşünürəm ki, oraya hamı getməlidir.

«Təbriz» mehmanxanası Naxçıvanda istirahət etmək üçün hər cür əlverişli şəraiti, səliqə-sahmanı, işçilərin isti münasibəti və mehribançılığı ilə seçilən bir mehmanxanaydı. Mehmanxana binasının yanında Dədəm Qorqudun abidəsi vardı. Çox gözəl abidə idi və bunları ilk dəfə gördüyüm üçün çox maraqlanır və sevinirdim. Mən o abidəyə baxınca Dədəm Qorqudun ruhunu hiss etdim. Bu abidə Qorqud ruhunun Azərbaycanda yaşadığını bir daha sübut edirdi və onun ruhunu hiss etməkdən əlavə, «Hərdən uçmaq istəyirəm» adlı şeir kitabımda çap edilmiş «Dədəm Qorqud, qopuzu çal, qopuzu» adlı şeirimi də yadıma salırdım. Bu şeirimi birdən ilhamlanıb yazmışdım. Şeiri yazarkən də Dədəm Qorqudun ruhunu hiss etmişdim, indiki kimi... Elə bil Oğuzların - ulu babaların zamanında yaşamışdım və Dədə Qorqudun qopuzunu dinləmişdim. Oranı ruhən Rusiyanın Dərbəndi yox, Azərbaycanın Dəmir qapılı Dərbəndi kimi hiss etmişdim. Bu da mənim "Dədəm Qorqud, qopuzu çal, qopuzu" şeirim:

Dəmirqapım nə səfalı yersən sən,
Dədəm, burda qopuzu çal, qopuzu.
Oğuz eli məclis qursun, sevinsin.
Dur, sevinclə qopuzu çal, qopuzu.

Qoy sevinsin sinəmdəki şad ürək,
Həmişə şənliklə Dərbəndə gələk.
Bu yerlərdə bir sevinək, bir gülək,
Dur, sevinclə qopuzu çal, qopuzu.

Kədər-qüssə uzaq düşsün elindən,
Yağı düşmən zərbə alsın əlindən.
Şad xəbəri mən eşidim dilindən,
Dur, sevinclə qopuzu çal, qopuzu.

Nə olsunki ora böyük Rusiyadı,
Tarixi Azəri yurdudur adı.
Oğuz nəsli elə orda yaşadı,
Dədəm Qorqud dağlara bax, dağlara
Dur, sevinclə qopuzu çal, qopuzu.

Buğac gəlsin «Şənəm» desin, oynasın,
Buğasını yenə yerə aşırsın,
Sevindik söz qoşsun, bir şeir yazsın,
Dədəm Qorqud, elin bu şən halına,
Dur, sevinclə qopuzu çal, qopuzu.

Bu şeirin yazılma tarixi 16. 06. 2017-ci ildir. «Hərdən uçmaq istəyirəm» adlı şeir kitabımda dərc olunub.

Biz «Təbriz» mehmanxanasının içərisinə daxil olduq. Mehmanxana binası uca və əzəmətli idi. Ən uca yerindən «Təbriz mehmanxanası» yazılmış lövhə asılmışdı. Binanın içi də çölü kimi gözəl idi. Elə foyedəykən özümü çox rahat hiss edirdim. Bu təyyarədən sonra aldığım növbəti rahatlıq idi. Naxçıvana getməzdən əvvəl bütün araşdırıcılar kimi Naxçıvan haqqında məlumat toplamışdım. Bu məlumatlar içərisində «Təbriz» mehmanxanası haqqında olan məlumatlar da var idi. Əvvəlcədən bilirdim ki, «Təbriz» mehmanxanası Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1 ünvanında yerləşir. 13 mərtəbəlidir, 5 ulduz kateqoriyası alıb.

Mehmanxananın qarşısında həm də İsmayıl xan hamamı var. Bu hamam XVIII əsrdə inşa edilib. «Təbriz» mehmanxanası isə 1982-ci ildə memar Tələt Xanlarov tərəfindən tikilib. Tələt Xanlarov bundan başqa Heydər Əliyev adına İdman Arenasını və Memar Əcəmi metro stansıyasını da inşa edib. O, 2004-cü ildə Bakıda vəfat edib. Artıq Naxçıvana nə üçün bir də gəlmək istəyəcəyimi başa düşəcəkdim. Mehmanxananın rəhbəri yüksək qonaqpərvərlik əhvalı-ruhiyyəsi ilə gəldi, bizə yaxınlaşdı, çoxdan tanıdığı əziz adamı kimi bizimlə səmimi görüşdü. Onun bu hərəkətlərini başqa rəhbər işçilərin də eyni qayda ilə edəcəyini sanmırdım. Onun danışığından, soyad və adından bildim ki, milliyyətcə türkdür. Soyadı Bəkirsoy, adı Başi idi. Ailəsi Türkiyədə idi, özü isə «Təbriz» mehmanxanasının rəhbəri idi. Bizə yuxarı mərtəbələrdən hər biri iki nəfər üçün nəzərdə tutulmuş iki otaq təklif etdi. Lakin atam ayrı qalmamağımız üçün bizə bir otağın kifayət edəcəyini bildirdi və ona görə də iki nəfər üçün nəzərdə tutulmuş həmin otaqda əlavə olaraq iki nəfər üçün də yataq dəsti hazırladılar. Bu otaq elə hündürdə idi ki, belə güman edirdin ki, pəncərədən bütün Naxçıvanı seyr etmək olar. Otağın pəncərəsindən baxdıqda ilk olaraq Möminə Xatun ananın möhtəşəm türbəsini görürdüm. Hündürdən baxdığım üçün özümü təyyarədən baxan kimi hiss edirdim.

Bir xoşbəxtlik partlayışı vardı içimdə, çünki Naxçıvana çatmışdım. Bəli, daha Naxçıvan vüsalına həsrət deyildim. Naxçıvanın ən gözəl yerlərini görəcəkdim. Bu, mənə bəs idi. Hər şey o qədər gözəl idi ki, boşuna beş ulduzlu deyilmirdi «Təbriz» mehmanxanasına. Bir az dincəldim, mənzərəyə baxdım, gözəl düşüncələr məni qoynuna aldı. Bəli, «Təbriz» mehmanxanasından demək olar ki, hər yeri görürdüm. Binaları, tərtəmiz küçələri, opera binasını, tarixi abidələri - Yusif ibn Küseyir türbəsini, Möminə Xatun ananın türbəsini, Nuh peyğəmbərin məzarını, daha haraları, nələri?..

Baxdıqca doymayırdım hüsnündən Naxçıvanımın və o gün xəyalımdan keçən düşüncələr hələ də yadımdadır. Bu fəsili həmin düşüncələrlə bitirmək istəyirəm: